yalnız bunlarla təsərrüfatlarda infeksiyaya qarşı mübarizə aparmaq mümkündür. Ev quşları vaksinasiyadan keçirilmir. Lakin iynə vurulmuş quşlar da isti, təmiz və quru şəraiti sevir.

**Döşənəyi müntəzəm dəyişdirmək, tarları silib təmiz saxlamaq binanın havasını tez-tez dəyişdirmək, ammonyak iyi olmasına imkan verməmək, yaş süpürgə ilə hörümçək torunu yığmaq, işıqlandırıcı və isidici cihazları silib təmizləmək, qabları yumaq lazımdır.** Quşlara əziyyət verən ikinci qrup «terrorçular»: birələr, bitlər, gənələr, lələk-yeyənlər və digər tüfeylilərdir. Quşların eşələnməsi, çimməsi üçün hər bir volyerdə içi qum və küllə doldurulmuş qutu olmalıdır. ki, ona qum və kül tökürlər. Yuvalardakı döşənəyi tez-tez dəyişdirmək, ən azı ildə bir dəfə onları dezinfeksiya etmək lazımdır.

Üçüncü qrupun məhv edilməsi mümkün deyil. Quş olan yerdə həmişə yem qalıqları qalır, deməli, gəmiricilər görünməyə başlayır. Gəmiricilərə qarşı bütün mübarizə tədbirləri: zəhər, tələ, iri tələlər, «elektron pişiyi», hətta mütəxəssis məsləhəti də lazımi səmərə vermir. Ən yaxşı, etibarlı və əsrlərlə sınaqdan keçirilmiş vasitə pişikdir. Özü də mütləq dişi pişik. Bəs pişik cücələri aparmaz? Xeyir, əgər onun pişik balalarını hində yerləşdirib, quşlara öyrətsəniz və zülallı qidalarla yemləsəniz, aparmaz.

**İtlər quşdamını daha iki qrup «terrorçudan» qoruyur.** Bunun üçün çoban iti saxlamaq daha yaxşıdır. Kəndlərdə quşlara tez-tez tülkülər, çaqqallar, qırğılar, qarğalar, saxsağanlar və digər yırtıcılar hücum çəkir. Pəncərə və qapıları vaxtında örtmək, deşikləri bağlamaq, torlar asmaq, bacaları metal tənəkə ilə örtmək, qısası, sayaq olmaq lazımdır.

**Niftulla Əzizov,**
*zootexnik*

İkinci Kənd Təsərrüfatının İnkişafı və Kreditləşdirilməsi Layihəsi

"Masallı Regional Məsləhət Mərkəzinin fəaliyyəti"

Layihə
Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən maliyyələşdirilir.

İcraçı: Aqro-Məsləhət Qeyri Hökumət Təşkilatı

Ünvan: Bakı, C.Cabbarlı 40.
Tel/faks 498188, 5967018.

"Kösər" mətbəəsində çap olunmuşdur. Sayı 5000.

# Toyuq hini (II)



Bakı-2010

**Volyerlər və talvar.** Quş damında saxlanan həm hər quş növü və cinsi üçün ayrıca həm də cavanlardan ötrü 1-2 volyer olmalıdır. Volyer elə olmalıdır ki, quşlar orada rahat yaşaya və quşabaxan işləyə bilsin, yəni yemləri vedrədən tökə, su gətirə, əyilmədən uzun dırmıx və yabalarla peyini təmizləyə, yumurtaları yığa bilsin. Hər $m^2$ döşəmə sahəsində norma üzrə 4 toyuq saxlana bilər. **Ona görə də volyerləri bahalı torla hasarlamaq lazım deyil. Həmçinin çoxlu müxtəlif quş saxlamaq da məsləhət görülmür. Əbəs deyilmir ki, yalnız bir cins saxlayan təsərrüfat damazlıq sayılır.**

Volyerləri metal torla hasarlamaq daha yaxşıdır. O, işığın və havanın keçməsinə maneçilik törətmir, onun tozunu süpürgə ilə almaq asandır, ondan suvarıcı və yem qabları asmaq mümkündür.

Cücələrin sutkalıq yaşından 90-günlük yaşına qədər saxlanmasından ötrü üzərinə nazik tor çəkilmiş iri qutular düzəldirlər. Onları döşəmədən ən azı bir metr hündürlüyə qaldırırlar. Cücə saxlanan bina bütün tərəflərdən metal təbəqələrlə örtülməlidir ki, sıçan keçə bilməsin. Ora işıqlandırmalı və qızdırılmalıdır.

Talvarın düzəldilməsi də sadə iş deyil. Toyuqlar ailəsinin bütün nümayəndələri gecə düşəndə yuxarıya qalxır, səhər açılanda isə oradan aşağıya uçub, ayaqlarını, dimdiklərini və yumurtalıqlarını zədələyir. Belə vəziyyətdən sadə çıxış yolu vardır. Hər divarın 1,3 m hündürlüyündə enli taxçalar düzəldilir və onlara mərtəbəvari tarlar vurulur. Toyuqlar tardan addımlayaraq düşürlər.

İri hinduşkalara, toyuq tarlarına dırmaşmaq çətindir, onlara döşəmədən 80 sm yuxarıda ayrıca tar düzəltmək lazımdır ki, asan çıxıb-düşsünlər.

**İşıqlandırma.** İşıqlanmadan ötrü gündüz işığı lampalarından istifadə etmək çox yaxşıdır. Onlar qənaətcildir və tez sıradan çıxmır, həm də ucuz başa gəlir. Lampaların gücü ilin vaxtından asılıdır. Quşlara parlaq işıq lazım deyil, yem qabını görməyə imkan verən işıqlanma kifayətdir. Quşların qış dövründə normal fəaliyyəti üçün sutkada 14 saat işıq yandırılması tələb olunur.

**Quş damında kvars və bakterisid lampaların olması yaxşıdır. Bu lampalar patogen mikrofloranın inkişafını dayandırır.** Cavanların isidilməsindən ötrü infraqırmızı lampalar daha yaxşıdır. Amma bütün hallarda lampaları çirklənməsin deyə, yuxarıdan asılmalı, qapaq yaxud torla örtülməlidir.

**Yuva.** Yuvaları quş özü əlverişli və rahat yumurtlama yeri seçəndən sonra düzəltmək lazımdır. Bəzi toyuqlar döşəmənin küncünü, digərləri isə hündür yeri seçir. **Əgər əvvəlcə 10 yuva düzəltsəniz, toyuqlar onun birində yumurtlayacaq, qalanları isə boş qalacaq.** Hər 4-5 yumurtlayan toyuğa bir yuva düzəltmək məsləhət görülür. Yuvalarda döşənəyi vaxtında dəyişmək lazımdır ki, birə və gənələr çoxalmasın. Yuvanın dibinə kül və taxta ovuntusu, üstündən isə quru ot, küləş yaxud ağac sıyrıntısı tökmək lazımdır.

**Su və yem qabları.** Ən əsası odur ki, su və yem qabları quşların hamısına, xüsusən cavanlara çatsın. Onlar möhkəm bərkidilməlidir ki, quşlar onları aşırıb çevirə bilməsin və ayaqlarını onların içinə salmasın. **Suvarıcıları plastik vedrələrdən düzəltmək yaxşıdır, onları bərkitmək əlverişli və yumaq asandır.** Artıq suyu yerə tökmək lazım deyil, çünki quş damında rütübəti artırır.

Yem qablarını taxtadan, uzunsov novça şəklində, ortasında fırlanan tutqac olmaqla düzəltmək daha yaxşıdır, toyuqlar fırlanan tutqacın üstünə çıxa bilmir.

**«Terrorçularla» mübarizə.** Xırda «terrorçuların» ən çoxsaylı qruppu, əlbəttə, mikrooqanizmlərdir. Adi sanitariya qaydalarına riayət olunması, quşların təbii şəraitə yaxın saxlanması və tamqiymətli yemləndirilməsi, həmçinin sərt seçmə